

*Daxili İşlər Nazirliyində işləmək, onun əməkdaşı, zabiti olmaq bir tərəfdən şərəflidir, ikinci tərəfdən də çox məsuliyyətli, əzabəziyyətlidir.*

Heydər Əliyev

# MÜBARİZ KEŞİKDƏ

29 oktyabr 2020-ci il
Cümə axşamı

№ 39 (3504)

www.mk.mia.gov.az - polisazerbaycan

1933-cü ildən çıxır

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI


# PREZİDENT İLHAM ƏLİYEV: “Biz tarixi ədaləti bərpa edirik”...

Oktyabrın 26-da xalqa müraciət edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bir aya yaxındır ki, ikinci Qarabağ müharibəsinin davam etdiyini və bu müharibənin xalqımız üçün Vətən müharibəsi olduğunu bildirib. Şanlı Ordumuzun bir çox yaşayış məntəqələrini düşməndən azad etdiyini deyən dövlət başçısı Dağlıq Qarabağın əzəli, tarixi Azərbaycan torpağı olduğunu, ən əsası, dünyanın görməzlikdən gəldiyi həqiqətlərimizlə bağlı haqlı olduğumuzu sübut etmək üçün döyüş meydanında ədaləti bərpa etdiyimizi də diqqətə çatdırıb.

Prezident qeyd edib ki, Ermənistan döyüş meydanında artıq diz çöküb. Onlar sadəcə olaraq, atəşkəsdən istifadə edərək qüvvələrini səfərbər etmək niyyətindədirlər və yenidən silahlanaraq öz çirkin əməllərini həyata keçirmək istəyirlər.

Münaqişə tərəfləri arasında vasitəçilik rolu oynayan, lakin açıqdan-açığa təcavüzkarın tərəfini tutan Minsk qrupunun iflic vəziyyətə düşdüyünü vurğulayan ölkə başçısı bu dondurulmuş vəziyyətin Ermənistanı qane etdiyini bildirib. O, həmçinin qeyd edib ki, Ermənistan qanunsuz olaraq torpaqlarımızda məskunlaşma aparır. Bu isə beynəlxalq cinayətdir, Cenevrə konvensiyalarına ziddir.



Atəşkəs rejiminə diqqət çəkən Ali Baş Komandan oktyabrın 10-da birinci dəfə atəşkəsin qüvvəyə mindiyini, onun humanitar xarakter daşıdığını, həlak olanların cəsədlərinin, girovların, əsirlərin dəyişdirilməsi üçün buna razılıq verdiyini deyib. Atəşkəsə əməl etməyən düşmənin gecə vaxtı Gəncəni bombalamasını, oktyabrın 17-də növbəti atəşkəsin elan olunmasından dəqiqələr keçməmiş Ermənistan tərəfindən pozulmasını Prezident atəşkəsə maraqlı olan həmsədr ölkələrə hörmətsizlik və saymazlıq kimi qiymətləndirib.

Bizi heç bir qüvvənin yolumuzdan döndərə bilməyəcəyini deyən Ali Baş Komandan döyüş meydanında əldə edilmiş uğurlar barədə də danışıb. O, rəşadətli ordumuzun düşmənə sarsıdıcı zərbələr endirərək döyüş meydanından qaçmağa məcbur etdiyini, sonra düşmənin məhv edilən və hərbi qənimət kimi götürülən texnikasının sayını açıqlayıb.

Azad edilmiş yaşayış məntəqələrinin də siyahısını diqqətə çatdıran dövlətimizin başçısı xalqımızı əmin edib ki, igid oğullarımızın sayəsində Qələbə bizim olacaq.

## Türkiyə-Azərbaycan qardaşlığı sarsılmazdır

Prezident İlham Əliyev 29 Oktyabr – Respublika Günü münasibətilə Türkiyə Respublikasının Prezidenti zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana təbrik məktubu göndərib.

Dövlətimizin başçısı təbrik məktubunda son illər ərzində qardaş ölkəniz siyasi, iqtisadi, sosial, hərbi, texnoloji cəhətdən hərtərəfli inkişaf nümayiş etdirərək dünya miqyasında müstəqil siyasət yürüdən güc mərkəzinə çevrildiyini məmnunluqla qeyd edib.

Bildirib ki, xalqlarımızın iradəsindən və ortaq milli-mənəvi dəyərlərindən qaynaqlanan Azərbaycan-Türkiyə birliyi və strateji müttəfiqliyi birgə səylərimizlə bu gün ən yüksək səviyyədədir. Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı ortaya qoyduğunuz qəti və birmənalı mövqe, haqq işimizə verdiyi tərəddüdsüz dəstəyin həmrəyliyimizin bariz nümunəsi və xalqımız üçün olduqca dəyərli olduğunu vurğulayan dövlət başçımız Azərbaycanın da öz növbəsində bütün məsələlərdə qardaş Türkiyənin yanında olduğunu ifadə edib.

Prezident İlham Əliyev gələcək nəsillərə ən böyük əmanət olan sarsılmaz Azərbaycan-Türkiyə birliyi və qardaşlığının “Bir millət, iki dövlət” şüarına uyğun olaraq bundan sonra da yüksələn xətt üzrə inkişaf edəcəyinə, daha da güclənəcəyinə ümidvar olduğunu bildirib.

*Prezident İlham Əliyev oktyabrın 24-də Fransanın “Figaro” qəzetinə, oktyabrın 25-də Amerika Birləşmiş Ştatlarının “Fox News” televiziya kanalına, oktyabrın 26-da İtaliyanın "Rai-1" televiziya kanalına, oktyabrın 28-də isə Rusiyanın "İnterfaks" agentliyinə müsahibə verib.*

## Azərbaycan haqq müharibəsində qalib olacaq

Ermənistan silahlı qüvvələri oktyabrın 27-də döyüş əməliyyatları zonasından kənarda yerləşən Bərdə şəhərini raket atəşinə məruz qoyaraq humanitar atəşkəs rejiminin şərtlərini növbəti dəfə kobud şəkildə pozub. “Smerç” qurğusundan buraxılmış kasetli raketlərlə atəş nəticəsində dörd mülki şəxs, o cümlədən yeddi yaşlı qız həlak olub. Dördü uşaq olmaqla on dörd nəfər ciddi xəsarət alıb.

Bu barədə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəsmi “Instagram” hesabında edilən paylaşımda deyilir: “Silahlı münaqişələr zamanı mülki şəxslərin qətlə yetirilməsi 1949-cu il Cenevrə Konvensiyalarının və bütövlükdə beynəlxalq humanitar hüquq normalarının ən kobud şəkildə pozulması deməkdir. Erməni təcavüzkarlarının əli ilə daha neçə günahsız insan həlak olmalıdır ki, dünya birliyi bu cinayətləri dinməzcə seyr etməyə son qoysun? Həlak olanların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verirəm, yaralananların tezliklə sağalmalarını arzulayıram. Biz öz torpağımızı təcavüzkarlardan azad edəcəyik və bu cinayətlərə son qoyacağıq. Uca Tanrı Vətənimizi qorusun!”



## Daxili İşlər Nazirliyində qəbul keçirilib

**Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov oktyabrın 22-də Türkiyə Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Erkan Özoralı və səfirliyin daxili işlər müşaviri vəzifəsinə yeni təyin olunmuş general-mayor Nuri Öztürkü qəbul edib.**

Qonaqları salamlayan nazir daxili işlər müşavirini yeni təyinat münasibətilə təbrik edib, dəyərli fəaliyyətində ona uğurlar arzulayıb.

Daxili İşlər naziri ulu öndərimizin «bir millət, iki dövlət» adlandırdığı Azərbaycan ilə Türkiyə arasında əlaqələrin genişləndiyini, dövlət başçılarımızın əməkdaşlığının bütün sahələrdə ən yüksək səviyyədə inkişafına böyük önəm verdiklərini diqqətə çatdırıb, eyni zamanda son illər hər iki ölkənin Daxili İşlər nazirliklərinin cinayətkarlığa mübarizə, peşə hazırlığı, informasiya və təcrübə mübadiləsi sahələrində əldə etdikləri diqqətəlayiq nəticələr barədə məlumat verib.

Hər iki ölkənin Daxili İşlər nazirlikləri arasındakı əməkdaşlığa toxunan nazir geniş müqavilə-hüquq bazasının mövcudluğunu xüsusi qeyd edərək bunun bariz nümunəsi kimi əməkdaşlar üçün Azərbaycanda və Türkiyədə kriminalistik təhqiqatlar, narkotiklərin qanunsuz dövriyyəsi və kibercinayətkarlıqla mübarizə, əməliyyat məlumatlarının emalı, informasiya və kommunikasiya, eləcə də daxili təhlükəsizlik sahələri üzrə 70-dən artıq təlim kursunun keçirildiyini və bu təlimlərə 900-dən çox polis əməkdaşının cəlb edildiyini diqqətə çatdırıb.

### Müzakirə olunan məsələlər həm də gələcək hədəflərin müəyyənləşdirilməsinə xidmət edir

General-polkovnik Vilayət Eyvazov bu gün Azərbaycan Polisinin, Daxili Qoşunların yüksək peşəkar səviyyədə fəaliyyət göstərdiyini, ictimai asayişin qorunmasında, cinayətkarlıqla mübarizədə aparıcı hüquq mühafizə orqanı kimi öz yerini tutduğunu məmnunluqla qeyd edərək bütün bu nailiyyətlərdə Türkiyə polisinin və Jandarm Qüvvələrinin də xüsusi rolunun, xidmətinin olduğunu nəzərə çatdırıb və buna görə Türkiyə Daxili İşlər Nazirliyinin, Emniyyet Genel Müdürlüyünün, o cümlədən Jandarm Qüvvələrinin bütün mənsublarına təşəkkürünü bildirib.



Səmimi qəbula, təbrikə və ətraflı məlumata görə dərin minnətdarlığını bildirən səfir Erkan Özoral qısa zaman kəsiyində respublikamızın sürətli bir inkişaf yolu keçməsindən məmnunluğunu bildirib, ölkəmizdəki diplomatik fəaliyyəti dövründə dövlətlərimiz və xalqlarımız arasındakı yüksək səviyyəli əlaqələrin daha da möhkəmləndirilməsinə öz töhfəsini verəcəyini vurğulayıb.

Dostluq və mehribanlıq şəraitində keçən görüşdə bir sıra digər məsələlər də müzakirə edilib.

## Yaponiya səfiri DİN-də olub

### İnkişaf edən əlaqələr yüksək qiymətləndirilib, faydalı əməkdaşlığa inam ifadə edilib

Oktyabrın 23-də Yaponiyanın ölkəmizə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Cuniçi Vadanı qəbul edən Azərbaycan Respublikasının Daxili İşlər naziri general-polkovnik Vilayət Eyvazov yeni təyinatı münasibətilə onu təbrik edib və dəyərli fəaliyyətində uğurlar arzulayıb. Nazir yeni səfirin öz fəaliyyəti ilə Azərbaycanla Yaponiya arasındakı əlaqələrə böyük töhfələr verəcəyini və bundan sonra da iki dövlətin qarşılıqlı, faydalı əməkdaşlığının daha da inkişaf edəcəyinə əminliyini bildirib.

Tanışlıq xarakteri daşıyan görüşdə səfirə Daxili İşlər Nazirliyinin funksiyaları, vəzifələri, eləcə də ölkədəki kriminogen durum barədə qısa məlumat verilib və tərəfləri maraqlandıran bir sıra digər məsələlər müzakirə edilib.

Səmimi qəbula və təbrikə görə general-polkovnik Vilayət Eyvazova minnətdarlığını bildirən səfir Cuniçi Vada Azərbaycandakı diplomatik fəaliyyəti dövründə dövlətlərimiz və xalqlarımız arasındakı yüksək səviyyəli əlaqələrin daha da möhkəmləndirilməsi üçün səylərini əsirgəməyəcəyini vurğulayıb.

# QAYIDIRIQ, VƏTƏN!



## Bu gün azad olunmuş torpaqlarımızda bayrağımız dalğalanır

1988-ci il hadisələrindən sonra düşmənin necə xain, hiyləgər və qəddar olduğunu gördük. İndi haylara "vətən" olan dədə-baba yurdlarımızdan havadarlarının köməyi ilə bizi didərgin salan düşmən daha da azğınlaşdı. Qarabağ və ətraf rayonların işğalı nəticəsində 1 milyondan çox soydaşımız həm məcburi köçkün həyatı yaşamağa, həm də Vətəndə vətən həsrəti çəkməyə məcbur və məhkum oldu. O yerlərdən qucaqda gələn körpələr indi valideynlərinin Vətən həsrəti yaşındadırlar. 30 ilə yaxın bir zaman kəsiyi bizi o torpaqlardan cismən ayırsa da, ruhumuzu, qəlbimizi ayıra bilmədi. Dözdük və məhz bu günləri gözlədik. O həsrət yaşıdı körpələr əsgər olub bu gün şəhidlərimizin qanını yerdə qoymur, düşməndən intiqamını alır, müqəddəs bayrağımızı illərdir tapdaq altında qalmış torpaqlarımızda göylərə ucaldırlar. İllər öncə yaşadıqları ağrını qazanılan qələbələr unutdurub onlara...

İllərdir **"Mübariz keşikdə"**nin səhifələrində torpaqlarımızın işğal günlərindən yazırıq. Hər dəfə o yazıları qələmə alanda baş verən hadisələr kino lenti kimi gözlərimizin önündən keçir, o günlərə qayıdır, yenidən o ağrı-acını yaşayırdıq. Yaza-yaza ürəyimizdən yalnız bir arzu keçirdi: kaş ki, o gün yetişə torpaqlarımız işğaldan azad oluna və biz o xoşbəxtliyi yaşaya, o torpaqları gəzə, görə biləydik. Hər yazının sonunda "Qovuşmaq ümidilə" yazıb imzamızı qoyurduq.

Qəzetimizin budəfəki nömrəsi Zəngilanın işğal gününə təsadüf edəcəkdi. Zəngilan 1993-cü il oktyabrın 29-da işğal olunmuşdu. ***Zəngilanın müdafiəsi zamanı 200 nəfərdən çox şəhid vermişdik, həmin döyüşlərdə 7 nəfər polis əməkdaşı da itkin düşmüşdü.*** Bu ilin 20 oktyabrında Ali Baş Komandanın xalqa müjdəsi 27 illik həsrətimizə son qoydu. Bu xəbərlə "Şəhri şərifan" yenidən doğuldu. İllərdir içində ağrısı ilə həsrətə zoğ-zoğ göyərən çinarların üreyinə su səpildi. O sevincli anı bütün Azərbaycan yaşadı. Bir həftə keçməmiş Qubadlımız da işğaldan azad olundu.

Bu savaş Azərbaycana neçə-neçə qəhrəman bəxş etdi. Biz düşmənlərimizə sübut etdik ki, bu Vətəni, bu torpağı kimsənin yemi etmərik.

Qayıdırıq Vətən, gözün aydın olsun. Sənin əsgər oğulların xarı bülbülün vətəni Şuşamızı, qartallar diyarı Laçınımızı, ürəyinə dağ çəkilmiş Xocalımızı, Ağdamımızı, Kəlbəcərimizi də azad edəcək. Və o gündən sonra biz "Gözlə gələcəyik", "Gözü yoldadır xarı bülbülün", "Damları ağ, bəxti qara Ağdam" başlıqlı deyil, "Axır ki, qovuşduq", "Biz gəldik", "Həsrət bitdi" başlıqlı yazılarla oxucularımızın ruhunu oxşayacağıq.

Bu arzumuzun çin olmasına sayılı günlər qalıb.

*Ruhiyyə Əliyeva,*
*polis baş leytenantı*

# Dünya susur, faktlar danışır...

Vətən müharibəmizə, haqq savaşımıza kölgə salmaq istəyən erməni lobbisinin yalan təbliğat maşınını dayandırmaq, əsl gerçəkləri dünya ictimaiyyətinə çatdırmaq üçün bu gün dünyanın müxtəlif ölkələrində yaşayan və fəaliyyət göstərən həmyerlilərimiz də fəallıq nümayiş etdirirlər. Avropanın ən böyük şəhərlərində təşkil edilən aksiyalarda Ermənistan silahlı qüvvələrinin mülki əhalini hədəf alması qınanır, Qarabağın tarixi Azərbaycan torpağı olduğu, mənfur ermənilərin isə XX əsrin 90-cı illərində torpaqlarımızı işğal etdiyi barədə faktlar səsləndirilir.






ABŞ-ın ən böyük ştatlarında, İsveç və Böyük Britaniya kimi söz sahibi ölkələrin meqapolislərində üçrəngli şanlı bayrağımız dalğalandırılır, etirazlar bildirilir, Azərbaycan həqiqətlərini əks etdirən fotolar, videoçarxlar nümayiş olunur.

Yeri gəlmişkən, mövqelərimizi müdafiə edənlər arasında qeyri-millətlərin nümayəndələri də var.

***Əslən Təbrizdən olan soydaşımız, məşhur Fransa fotoqrafı, "National Geographic" jurnalı ilə əməkdaşlıq edən Rza Diqqəti bugünlərdə "Instagram" səhifəsində Şuşa ilə bağlı paylaşım edib. 68 yaşlı fotoqraf "Şuşada sonuncu çay – 1992-ci il" və #karabakhisazerbaijan həştəqi ilə Şuşa haqqında məlumat verib. O, yazıb: "Şuşa Qarabağ regionunun tarixi, mədəni mərkəzi və Azərbaycanın son strateji dayağı idi. Erməni hərbçiləri bu şəhəri uzun aylar mühasirədə saxladıqdan sonra 8 may 1992-ci ildə ələ keçirdilər. Erməni silahlı qüvvələri yüzlərlə kişi, qadın, uşağı yaraladı və öldürdü. Şəhəri ələ keçirdikdən sonra vandallar əsas mədəniyyət mərkəzlərini, muzeyləri, məscidləri və məktəbləri yandırdılar".***

*T.Əlizadə,*
*polis kapitanı*

# ONLAR YAŞAMAQ İSTƏYİRDİ...

Müharibənin, döyüşün də bir ədəb-ərkanı, əxlaqı, üslubu var. Ancaq təəssüflər olsun ki, erməni vəhşiliyi, vandalizmi bu əxlaqdan, bu üslubdan çox-çox uzaqdır...

Düz otuz iki gündür Vətən savaşındayıq və uğurla irəliləyirik. Rəşadətli ordumuzun əzmi qarşısında tab gətirə bilməyən düşmən arxasına baxmadan silah-sursatını, texnikasını döyüş meydanında atıb qaçır. Hər gün torpaqlarımızın qarış-qarış düşmən tapdağından azad edilməsi xoş xəbərlərini alırıq. Çünki biz haqq yolundayıq.

Qalibiyyətimizi sinirə bilməyən düşmən döyüş meydanındakı uğursuzluğunun heyfini dinc insanları hədəf almaqla çıxır. Cəbhədən uzaq olan şəhərləri, kəndləri atəşə tutmaqla öz xain xislətini yenə nümayiş etdirir. Xocalıda, Qaradağlıda məsum insanları, uşaqları, qocaları qətl edənlər XXI əsrdə də terroru dövlət siyasətinə çevirdiklərini Gəncəni vurmaqla sübut etdilər. Dağılan evləri, övlad itirən ataları, anaları, kimsəsiz qalan uşaqları isə dünya yenə görməzlikdən gəldi. Zaman gələcək ədalət öz yerini tapacaq. Ancaq biz istərdik ki, günahsız insanları, uşaqları öldürən qatillərə dünya ədalət tərəzisini indi göstərsin...



## Ermənilər gələcəyin həkimini, polisini, memarını və əsgərini öldürdülər...

**Orxan İsmayılzadə** 10-cu sinif şagirdi idi. O, düşmənin Tərtər şəhərinə raket hücumu nəticəsində həlak oldu.

2007-ci il təvəllüdlü **Mayakov Artur Vasilyeviç** Gəncəyə bibisigilə qonaq gəlmişdi. Vətəni Rusiyaya qayıtmaq nəsib olmadı.

**Nigar Əsgərova** 15 yaşında gözlərini əbədi olaraq yumdu. Həmin gecə xalası Sevil Əsgərova, 10 aylıq xalası qızı Narın Xalıqova Gəncəyə atılan raketin qurbanı oldu.

**1 yaşlı Mədinə** daha ana laylası eşitməyəcək. O, Azərbaycan xalqının yaddaşında Gəncə qətliamının qurbanı kimi əbədi qalacaq.

**İsgəndərov Fərid Dilafət oğlu** ermənilərin Ağcabədini ağır artilleriyadan atəşə tutması nəticəsində həlak olub. Fərid 9-cu sinif şagirdi idi.

Oktyabrın 27-də Bərdəyə atılan raket nəticəsində **7 yaşlı Aysu İsgəndərova** həlak oldu.

**2007-ci il təvəllüdlü Şəhriyar Qurbanov və onun əmisi qızı, 2006-cı il təvəllüdlü Fidan Qurbanova** da erməni terrorunun qurbanlarıdır. Hər iki məktəbli Naftalanın yaşayış məntəqələrinin atəşə tutulması nəticəsində həlak olub.

*Teymur Əlizadə*

# Veteranların fəaliyyəti nəticəsində...

## Təcrübə nəsildən-nəsilə ötürülür və bu da uğurları davamlı edir

Şəxsi heyətlə təlim-tərbiyə işinin aparılmasında, gənc əməkdaşların peşə vərdişlərinin artırılmasında, onlarda dövlətə, xidməti vəzifə borcuna, anda sədaqət hisslərinin formalaşdırılmasında, nizam-intizama və qanunçuluğa ciddi əməl edilməsində veteranlarımızın rolu böyükdür. Daxili işlər orqanlarında polis veteranları ilə qarşılıqlı fəaliyyət əsas hədəflərdən biri kimi qarşıya qoyulub. Böyük həyat və xidmət yolu keçmiş, zəngin təcrübəsi olan veteranlarımız bu gün də cinayətkarlıqla mübarizəyə töhfələrini verirlər.

***Belə ki, ötən müddət ərzində veteranların iştirakı ilə respublika daxili işlər orqanları üzrə 2727, Bakı şəhəri üzrə isə ümumilikdə 1452 cinayət hadisəsinin üstünün açılması təmin edilib.***

Binəqədi, Nərimanov, Nizami, Sabunçu və Suraxanı rayon Polis İdarələrinin Veteranlar Şurasının üzvləri bu ilin müvafiq dövründə hüquqazidd əməllərin qarşısının alınmasında, cinayətlərin açılmasında fəallıq nümayiş etdiriblər.

*R.Əliyeva*

# Gözəgörünməz düşməni unutmayaq

27 sentyabrdan başlayan antiterror əməliyyatında Silahlı Qüvvələrimizin hər gün yeni uğurlara imza atması xalqımız tərəfindən böyük coşqu və sevinc hissi ilə qarşılanır. Rəşadətli ordumuzun illərdir xəyal etdiyimiz arzularımızı çin etməsi, döyüş meydanında düşmənə sarsıdıcı zərbələr endirməsi, necə deyərlər, xalq-ordu həmrəyliyinin bariz nümunəsidir. Bu gözəgörünən düşməndir. Ancaq unutmayaq ki, ölkəmiz ikinci cəbhədə gözəgörünməz düşmənlə də mübarizədədir.



## Vətəndaş məsuliyyəti ilə qaydalara riayət etmək hər birimizin borcudur

Bu gün COVID-19 koronavirus pandemiyasının dünyada və ölkəmizdə artan statistikası həyəcan təbilinin çalındığından xəbər verir. Vətəndaşlar arasında yoluxma sayının çoxalması qabaqlayıcı-profilaktik tədbirlərin artırılmasının vacibliyini ön plana çıxarır. Bu məqsədlə, daxili işlər orqanlarının əməkdaşları sərtləşdirilmiş karantin rejiminin tətbiq olduğu qırmızı, eləcə də rejimin yumşaldılmış narıncı zolaqlara daxil olan ərazilərində sanitar-gigiyena qaydalarına, habelə tibbi maskalardan istifadə olunmasını, ara məsafəsinin gözlənilməsini nəzarətdə saxlayır. Həmçinin infeksiyanın yayılmasının qarşısının alınması məqsədilə polis əməkdaşları tərəfindən maarifləndirici, izahedici söhbətlər də aparılır.

Görülən işlər bir məqsədə: vətəndaşların təhlükəsizliyinin, sağlamlıq durumunun qorunub-saxlanılmasına xidmət edir.

*Ə.Teymur*

# Yeni yol nişanları quraşdırılır







Baş Dövlət Yol Polisi İdarəsinin Siqnal İdarəsi Azərbaycan ordusu tərəfindən işğaldan azad olunmuş ərazilərin adlarının əks olunduğu nişanları hazırlayıb. Yeni lövhələr yaxın günlərdə həmin şəhər və rayonların, eyni zamanda kəndlərin girişlərinə vurulacaq.

Qeyd edək ki, digər işğaldan azad olunan bölgələrin adlarının əks olunduğu lövhələrin hazırlanmasına da başlanılıb. Rəşadətli ordumuz tərəfindən torpaqlarımız azad olunduqca həmin şəhər və rayonların, kəndlərin girişləri müvafiq nişanlarla təmin olunacaqdır.

*N.Cavadov*

# Dünya ilə hansı dildə danışaq?



Biz Ermənistanla diplomatik masa arxasında danışdıq və dünyanın gözü qarşısında onu məğlub etdik. İndi də döyüş meydanında düşməni məğlub edirik. Ancaq, sən demə, dünya bizim öz torpaqlarımızı işğaldan azad etməyimizi istəmirmiş. Bu səbəbdən də səsimizi eşitmir, nə deyiriksə, susqunluqla qarşılayır, ancaq erməniyə həm dil, həm də silah verir. O silahlar da Gəncədə, Goranboyda, Ağdamda, Tərtərdə və Bərdədə evləri dağıdır, körpələri, uşaqları öldürür. Belə olan təqdirdə dünyada sülh, demokratiya olsun deyənlərlə Ermənistanın nə fərqi oldu ki?

Azərbaycan dünyadan daha çox tolerantdı. Çünki ölkəmizdə dilinə, dininə, milli kimliyinə görə kimsə təqib olunmur, suçlanmır və öldürülmür. Biz haqlıyıq, çünki öz torpağımızda döyüşürük. Haqqımızı görməzlikdən gələnlər isə ölkələri bölmək üçün okeanlar keçib, sərhədlər aşırlar.

Bu otuz ildə BMT qətnamələri saya salınmadı, düşməni kifayət qədər müdafiə etdilər. Paradoksa baxın: İndi biz özümüzü müdafiə edirik, dünya üzərimizə yeriyir. XXI əsrin dünyası, məncə, belə olmalı deyildi. Yəni mənzərə çox haqsızdır.

"Dünya bizim" deyən dövlətlərin guya öz aləmlərində çoxbilmiş jurnalistləri möhtərəm Prezidentimizə "iynəli" suallar verirlər. Və verilən cavablar qarşısında anındaca mat olurlar, çünki həqiqət var ortada, çünki biz haqq uğrunda vuruşuruq.

Görəsən, biz bundan sonra dünya ilə hansı dildə danışmalıyıq ki, o bizi anlasın və ya Birinci vitse-prezidentimizin təbirincə desək, Erməni təcavüzkarlarının əli ilə daha neçə günahsız insan həlak olmalıdır ki, dünya birliyi bu cinayətləri dinməzcə seyr etməyə son qoysun?



*Hafiz Təmirov,*
*polis polkovnik-leytenantı*

# Ürəyimizdən tikan çıxaran nitq

**İndi ermənilər Türkiyə və Azərbaycan televiziyalarını bəlkə bizdən də çox izləyirlər. Möhtərəm Prezidentimizin hər çıxışı 30 ilə yaxın bir müddətdə qəlbimizə sancılmış qara tikanları ürəyimizdən çıxardıqca, ermənilərə də gözdağı verir, onsuz da zəhərə dönmüş həyatlarını bir az da mənasız edir.**

Ali Baş Komandan işğalçı Ermənistana, terror dövlətinin cinayətkar başçısına, bütövlükdə erməniliyə meydan oxuyur: "Qarabağ Ermənistandır" deyən Ermənistanın baş naziri, nə oldu, indi demirsən "Qarabağ Ermənistandır"?! Gəl Füzuliyə, sən orada bizim torpağımızı istismar edirdin. Gəl Cəbrayıla, gəl Hadruta, gəl azad edilmiş başqa yerlərə, de ki, "Qarabağ Ermənistandır". Oturmusan orada – İrəvanda, ordan bəyanatlar verirsən, dünya liderlərinin zəhləsini tökürsən, adam qalmayıb ki, telefonla zəng etməyəsən.

Niyə demirsən "Qarabağ Ermənistandır"?! Qorxursan, qorxacaqsan! Bəs Azərbaycan xalqını təhqir edəndə, "Qarabağ Ermənistandır və nöqtə" deyəndə niyə elə cəsarətli idin? Kimə güvənirdin? Kimə arxalanırdın? Bilmirdinmi ki, gün gələcək, bu əməllərə görə cavab verəcəksən?! Bu gün gəlibdir və gəlir".

Bəli, o gün gəldi – 27 sentyabr...

Müzəffər Azərbaycan Ordusunun erməni işğalçı qüvvələrinə qarşı başladığı antiterror əməliyyatlarının 1 ayı tamam olub. İgid oğullarımız bu müddətdə işğal altında olan 7 rayondan artıq dördünü – Füzulini, Cəbrayılı, Qubadlını, Zəngilanı işğaldan tam azad edib, Hadrut da daxil olmaqla 150-dən çox qəsəbə və kəndlərimizi, Murov kimi olduqca mühüm strateji yüksəklikləri geri qaytarıb.

Bu gün laçın oğullarımızın sorağı Laçından gəlir. Vətənimizin bu dilbər güşəsində böyüyüb boya-başa çatmış, gəncliyinin bir hissəsini o məğrur diyarda keçirmiş, o yerlərə yaxşı bələd olan biri kimi, tam məsuliyyətimlə deyirəm ki, müharibənin taleyi artıq həll olunub. İndi müzəffər ordumuzun əsas vəzifəsi Laçın dəhlizi üzərində nəzarəti tam təmin etməkdir. Bundan sonra çox yaxın vaxt dönəmində işğalçı ordunun təslim olmasını və ya məhv edilməsini gözlərimizlə görəcəyik. Onsuz da erməni silahlı birləşmələri artıq demoralizə olunub, acınacaqlı vəziyyətdədir.

**Prezident hər birimizin qəlbindən keçənləri dilə gətirdi**

Bugünlərdə Silahlı Qüvvələrimizin Ali Baş Komandanı cənab İlham Əliyevin Müdafiə Nazirliyinin Mərkəzi Komanda Məntəqəsində Nazirliyin rəhbər heyəti və cəbhə bölgəsində yerləşən birlik komandirlərinin iştirakı ilə keçirdiyi operativ müşavirədə Kəlbəcərin bir hissəsini işğaldan azad etdiyimizi deməsi də, fikrimizcə, Laçın və Kəlbəcər-Vardenis yolunun bağlanmasına işarə idi. Möhtərəm Prezidentimiz elə həmin çıxışında bir daha vurğuladı ki, artıq bizi heç nə, o cümlədən, Azərbaycana olan təzyiqlər də dayandıra bilməz. Biz axıra kimi gedəcəyik. Türkiyə kimi bir dövlət də bizim arxamızdadır və bu, təzyiqləri neytrallaşdırır.

***Ali Baş Komandanın çıxışlarındakı inam hissi həm də xalqın ona sonsuz güvəncinin təzahürüdür. Xalq-iqtidar və ordu birliyi bizi həsrətində olduğumuz yurd yerlərimizə qovuşduracaq. Biz Qələbə çalacağıq və Şuşada, Xankəndində dalğalanan Azərbaycan bayrağını görəndə bizi istəməyənlərin, haqqı görməzlikdən gələnlərin, düşmənimizə dil verənlərin Qarabağ Azərbaycandır deməkdən başqa çarəsi qalmayacaq.***

*Rahib Qarayev,*
*Şəxsi Heyətlə İş İdarəsinin rəisi,*
*polis polkovniki*

# Yaşı 70-i haqlasa da...



Bugünlərdə saytların birində maraqlı fakt diqqətimizi çəkdi. Polis veteranı Vətən müharibəsində döyüşmək üçün könüllü olaraq Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə müraciət etmişdi. Maraqlandıq, soraqlaşdıq, kimliyini dəqiqləşdirdik. ***Məlum oldu ki, o, birinci Qarabağ müharibəsinin iştirakçısı, təqaüddə olan polis polkovnik-leytenantı Hacıbala Hacıyevdir.***

Hacıbala Hacıyev 3 uşaq atası, 8 nəvə babasıdır. Daxili işlər orqanlarında bir çox vəzifələrdə xidmət edib. Cinayətkarlıqla mübarizədə və asayişin qorunmasında göstərdiyi fədakarlıqlara görə dəfələrlə rəhbərlik tərəfindən müxtəlif mükafatlara layiq görülüb. Qocaman həmkarımız torpaqlarımız uğrunda gedən döyüşlərdə şəhid olan dostlarını bu gün də xatırlayıb kövrəlir və onların qisasını düşməndən almaq üçün gənclərlə bir sırada dayanıb döyüşlərə atılmaq istəyir.

**Polis veteranları arxa cəbhədə olduğu kimi, ön cəbhədə də birinci sırada olmaq istəyirlər**

Deyir ki, bu gün Vətən müharibəsində, haqq savaşımızda, qocalı-cavanlı cəsarət, qəhrəmanlıq, əzm və şücaət göstərmək vaxtıdır...

İnanırıq ki, belə vətənpərvər insanları, qeyrətli oğulları olan Vətən heç vaxt yağıya yurd olmaz.

Torpaqlarımızın işğaldan azad olunması uğrunda döyüşlərə gəlincə, biz Ermənistan deyilik ki, yaşlı insanları, ahılları və qadınları səfərbər edib, döyüşə göndərək.

*Ruslan Vəliyev,*
*polis leytenantı*

# Asayişin və sabitliyin keşiyində

**Bakıda tətbiq edilən komendant saatı ilə əlaqədar paytaxtın müxtəlif ərazilərində polis postları qurulub.**



Polis əməkdaşları və Daxili Qoşunların hərbi qulluqçuları saat 21:00-dan səhər saat 06:00-dək paytaxt ərazisində hərəkət edən avtomobilləri və vətəndaşları saxlayaraq, müvafiq icazə sənədlərinin olub-olmamasını yoxlayırlar.

Bundan başqa, avtomobillərin yük yerinə də baxış keçirilir. Eyni zamanda polis əməkdaşları vətəndaşları komendant rejiminin qaydaları barədə məlumatlandırırlar.

Gecəli-gündüzlü xidmət aparan asayiş keşikçiləri bir neçə vəzifənin icrasını peşəkarcasına və uğurla yerinə yetirməklə, dövlətimizə, xalqımıza ləyaqətlə xidmət edirlər.

Qeyd edək ki, polisin fəaliyyətini vətəndaşlar da təqdir edirlər: "Torpaqlarımızı işğaldan azad etmək üçün ordumuz ön cəbhədə düşmənə qan uddurur. Arxa cəbhədə isə insanların təhlükəsiz yaşayışını təmin etmək üçün Azərbaycan Polisi hər çətinin öhdəsindən layiqincə gəlib andına sadiqliyini nümayiş etdirir. Sevinirik ki, ölkəmizin təhlükəsizliyi əmin əllərdədir və o sabitliyi təmin edə biləcək, terrorla kəskin mübarizə aparmağa qadir olan, peşəkar və etibarlı insanlara, Vətənini, dövlətini sevənlərə həvalə olunub. Bütün bunlarla bərabər, vətəndaşların sağlamlığının qorunması üçün COVID-19 pandemiyası ilə əlaqədar olaraq ticarət mərkəzlərində, ictimai nəqliyyatda polis reydlərinin keçirilməsi, ölkə ərazisində terrorizmlə mübarizə mexanizminin tətbiq edilməsi, komendant rejiminin idarə olunması və s. kimi fəaliyyətləri ilə Azərbaycan Polisi bu gün cənab Prezidentin etimadını ən yüksək formada doğruldaraq bir tarix yazır!". Bu fikirləri paytaxt sakinləri ilə həmsöhbət olarkən onlardan eşitmək, sözün əsl mənasında, qürurverici idi.

**Vətəndaşlar Azərbaycan Polisinin xidmətini yüksək qiymətləndirirlər**



*Zeyni Hüseynov,*
*polis leytenantı*

# "İsti izlər"lə...



**Xəzər RPİ-nin 3-cü Polis Bölməsi** uğurlu əməliyyat həyata keçirib. Rayon ərazisində oğurluq hadisəsinin üstü "isti izlər"lə açılıb.

Bölmə əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində oktyabrın 14-də rayon ərazisindəki evlərin birindən 3 min manat və 4 min ABŞ dolları oğurlamaqda şübhəli bilinən Hacıqabul rayon sakini O.Mehdiyev saxlanılmışdır.

*****

**Səbail rayon Polis İdarəsinin Narkotiklərlə Mübarizə Bölməsinin** əməkdaşları tərəfindən narkotik vasitələrin satışı ilə məşğul olan şəxslərə qarşı əməliyyat həyata keçirilib.

Bölmə əməkdaşlarının daxil olmuş əməliyyat məlumatı əsasında keçirdikləri tədbir zamanı narkotik vasitələrin satışı ilə məşğul olan Bakı şəhər sakini N.Əhmədova saxlanılıb. Onun üzərinə baxış zamanı müxtəlif xassəli narkotik vasitələr aşkar edilib.

Əməliyyat tədbirlərinin davamı olaraq N.Əhmədovaya onlayn yolla narkotik vasitələr satan, paytaxt sakini Ruslan Şeyxov da saxlanılaraq Səbail rayon Polis İdarəsinə gətirilib. Onun yaşadığı mənzilə baxış zamanı 4 ədəd bağlamada və 17 ədəd kibrit qutusunda ümumi çəkisi 6 kiloqram 8 qram olan narkotik vasitə marixuana aşkar olunaraq götürülüb. Araşdırma zamanı müəyyən olunub ki, saxlanılan şəxslər külli miqdarda narkotik vasitənin satışını təşkil etmək istəyiblər.

Faktla bağlı Səbail RPİ-nin İstintaq Şöbəsində cinayət işi başlanılıb. Zəruri istintaq və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

*****

**Nizami RPİ-nin 24-cü Polis Şöbəsinə** müraciət edən Bakı şəhər sakini İ.Süleymanov oktyabrın 25-də Q.Qarayev prospektindəki bazarda bir nəfərin ona zor tətbiq edib 2500 manat pulunu aldığını bildirmişdir.

24-cü Polis Şöbəsi və Əlahiddə Çevik Polis Alayı əməkdaşlarının birgə keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində soyğunçuluğu törətməkdə şübhəli bilinən şəhər sakini O.Bayramlı müəyyən edilərək saxlanılmışdır.

*****



Oktyabrın 25-də Masallı rayonunun Şərəfə kənd sakini V.Əbilov RPŞ-yə müraciət edərək evində qonaq olan M.Şükürovun 150 manat və 500 ABŞ dolları pulunun, E.Novruzovun isə 3 ədəd mobil telefonunun və geyim əşyalarının oğurlandığını bildirmişdir.

Polis əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində oğurluğu törətməkdə şübhəli bilinən şəhər sakini, əvvəllər məhkum olunmuş A.Həbibov müəyyən edilərək saxlanılmışdır.

# Həqiqət axtarışında: Erik Fayqlı tanıyırıqmı?

Polis və hüquq müdafiəçisi olmasa da həqiqət axtarışı uğrunda ikili yanaşmaların meydan suladığı bir zamanda haqqın, ədalətin keşiyində durmağı bacardı və təkcə millətinin deyil, bütün türk dünyasının sevgisini qazandı. Və sözün əsl mənasında, Tanrı tərəfindən ona verilən ömürdən əsl qazancı elə həqiqət oldu.

O, milliyyətcə türk deyildi. Lakin dünyada türkü sevən, türk adının böyüklüyünə işıq tutan bir Avstriyalı tarixçi-alim, professor idi.

O, 1931-ci ildə Vyanada dindar ailədə dünyaya göz açmışdı. Dini dəyərlərin kiçik yaşlarından onun dünyabaxışına təsir etməsi gələcək fikirlərində həqiqətin və obyektivliyin üzə çıxmasına yardımçı olmuşdur.

Tələbəlik illəri yaradıcılığında dönüş nöqtəsi oldu. Ətrafında dünyaya açıq gözlə baxan insanların olması onu çətin, lakin məsuliyyətli bir işin arxasınca getməyə sövq etdi. Hələ tələbə ikən artıq o, öz daxili aləminin zənginliyi və yüksək yaradıcılıq qabiliyyəti ilə öz yaşıdlarından seçilirdi. Bədii yaradıcılığın və elmi təfəkkürün harmonik şəkildə bu böyük insanda özünü ehtiva etməsi onun ideal bir insan kimi formalaşmasına təkan verdi. Sənədli film rejissorluğu sahəsində özünü sınaması "Dünyanın nəhəng dinləri", "Tele-qalereya", "İnsanlar və əfsanələr" kimi uğurlu yaradıcılıq nümunələrinin meydana çıxması artıq böyük bədii və elmi yaradıcılığa bir tramplin oldu. Yaratdığı əsərlərə görə Erik Fayql Avstriya Respublikasının "Elm və İncəsənət üçün Fəxri orden"i ilə təltif edilmişdir.



***Bəs, Erik Fayqlı Şərqə, İslam və Türk dünyasına bağlayan nə idi? Bu sualın bir cavabı var: həqiqət və gerçəklik.***

Şərqin sirli-sehrli mədəniyyəti və üzü Altaylardan baş alıb gələn, hələ xristianlıqdan və islamdan öncə "Tenqri-Tenqri" deyib ilahi varlığa - Allaha olan sevgisini bu gün də dünyaya bəyan edən, dünyada ədalət prinsiplərinin bərqərar olmasına çalışan böyük türkün tarixi bir çox araşdırmaçılar və bilim adamları kimi Erik Fayqlı da cəlb etməyə bilməzdi. Türklərin həyat tərzi, onların yaratdığı zəngin maddi və mənəvi irs onun çəkdiyi 17 sənədli filmdə bütün dünyaya yayımlandı.

***"Cənnətin axınları üzərində" (Mesopotomiyanın dini icmaları barədə), "Türkləri gəldiyi yerlər" və "Türklərin getdikləri yerlər" (Osmanlı imperiyasının təşəkkülü və süqutu haqqında) individual televiziya filmləri professor Erik Fayqlı 1915-ci ildə Osmanlı imperiyası dönəmində baş vermiş hadisələr və bu gün bütün xristian dünyasının Türkiyəni hədəflərində saxlamaq üçün ortaya atdıqları qondarma "erməni soyqırımı" məsələsi ilə daha dərindən məşğul olmağa və tarixi gerçəklikləri ABŞ tarixçiləri Jastin Makkarti və Karolin Makkarti kimi üzə çıxarmağa ruhlandırmışdır.***

Görkəmli alim daha sonra "Min bir hakimiyyət" (Şərqi Türküstan, Çin xalqı və onların vahid mədəni irsi), "Suyun gücü" (Türkiyənin şimal-şərqi Anadolu layihəsi-GAP) kimi sənədli filmlər çəkərək öz şöhrətini daha da artırmışdır. Sultan Süleymandan bəhs edən "Qanuni Sultan" filmi bədii və tarixilik baxımından onun yaradıcılığının kuliminasiya nöqtəsi olmuşdur. Bundan başqa, professor Erik Fayqlın tarixi araşdırmaları əsasında "Bardo" və "Dirçəliş" kimi filmlər də çəkilmişdir. Hazırda Avstriya Milli Kitabxanasında professor Erik Fayqlın 16 əsəri saxlanılır. Onun əsərlərinin böyük bir hissəsi islam mədəniyyəti, eləcə də, Türk və Azərbaycan xalqının tarixi ilə bağlıdır. ***Erik Fayql dünyaya özlərini məzlum, kimsəsiz bir xalq kimi tanıtmış ermənilərin tarixdə törətdikləri faciələri, onların beynəlxalq terror şəbəkəsinin üzvü olduqlarını, türklərin tarixi torpaqlarında sığınacaq tapıb sonradan türkləri həmin ərazilərdən qovduqlarını elmi və tarixi əsaslarla söykənərək öz əsərlərində dönə-dönə qeyd etmiş və ermənilərin gerçək üzünü ortaya çıxarıb bütün dünyaya bəyan etmişdir.***

*Ardı gələn sayımızda.*


# "XƏZRİ" sizi gözləyir!




**Daxili İşlər Nazirliyinə bilavasitə tabe olan"Xəzri" İstirahət və Sağlamlıq Mərkəzində standart otaq üçün bir günlük xərcin 2-ci mövsüm üzrə 16 sentyabr 2020-ci il - 31 may 2021-ci il tarixlərə qiymətləri (daxili işlər orqanlarının əməkdaşı üçün 14 gün müddətinə olan yollayışda nəzərdə tutulmuş güzəştlərlə)**

**Qeyd:** 1. "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmətkeçmə haqqında" Əsasnamənin 99-cu bəndinə əsasən, daxili işlər orqanları əməkdaşlarına hər il yollayışın qiymətinin 75 faizi miqdarında, ailə üzvlərinə isə 50 faizi miqdarında imtiyaz verilir. Yollayışlar 14 gün müddətinə ildə bir dəfə verilir və yalnız standart otaqlara aiddir. Bu imtiyaz iki bərabər hissəyə (hər biri 7 gün müddətində) bölünmək şərtilə verilə bilər.

2. Daxili Qoşunların hərbi qulluqçuları (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş əsaslarla Mərkəzə yollayış almaq hüququna malikdirlər.

3. Bir günlük xərc tək polis əməkdaşı üçün 22,50 manat (iki nəfərlik nömrəni tək tutduqda 37,50 manat), standart 2 nəfərlik otaqda özü və 1 nəfər ailə üzvü üçün 67,50 manat, özü və 6-12 yaşadək bir uşaq (dolu otaqda əlavə yer verilmək şərti ilə) üçün 62,50 manat, iki nəfər ailə üzvü üçün (özü olmadan) 90,00 manat və onlarla birgə 6-12 yaşadək uşağa əlavə yer verildikdə 115,00 manat təşkil edir.

4. 6 yaşadək uşaqların qalması ödənişsizdir.

5. Qiymətlərə pulsuz 3 dəfə yemək, Wi-Fi şəbəkəsi, SPA girişi (qapalı hovuz, hamam, sauna), çimərlikdən, açıq hovuzdan, akvaparkdan, trenajorlardan, mini-futbol, voleybol və uşaq meydançalarından istifadə daxildir. Digər bütün xidmətlər ödənişlidir.

6. Karantin rejimi dövründə 6 yaşdan yuxarı şəxslər COVİD-19 testinin neqativ nəticəsi barədə 2 gün qüvvədə olan arayış təqdim edir.

**Ünvan: Bakı şəhəri, Zuğulba qəsəbəsi, Rasim İmanov küçəsi, 40. Mərkəzə "Koroğlu" metro stansiyasından 171 nömrəli avtobus gəlir.**
**Telefon: (+99412) 554-47-60;**
**Mobil telefon: (+99450) 291-15-51; (+99455) 291-15-51;**
**Faks: (+99412) 453-63-33;**
**Poçt indeksi: AZ1090**
**E-poçt: info@khazribaku.az**
**Veb-sayt: www.khazri.mia.gov.az**

**16 sentyabr 2020-ci il - 31 may 2021-ci il**

**(2 nəfərlik standart otağın güzəştsiz qiyməti : iki nəfər qaldıqda 180 manat, bir nəfər tək qaldıqda 150 manat)**

| | 2 nəfərlik nömrədə iki istirahətçi qaldıqda 1 nəfər üçün | 2 nəfərlik nömrədə bir istirahətçi tək qaldıqda |
|---|---|---|
| Yollayışla gələn polis əməkdaşı (75% güzəştlə) | 22,50 manat | 37,50 manat |
| Onun ailə üzvü (50% güzəştlə) | 45,00 manat | 75,00 manat |
| Polis əməkdaşı ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (50% güzəştlə) | 25,00 manat | |
| Kənar şəxslər (güzəştsiz qiymət) | 90,00 manat | 150,00 manat |
| Valideyni ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 50,00 manat | |
| 12 yaşdan yuxarı şəxsə yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 70,00 manat | |


# "Lev Tolstoyun qızı erməni vəhşilikləri haqqında"



Türkiyənin "Alternatiftarih" portalı, Birləşmiş Ərəb Əmirliklərinin məşhur "Saadaonlaine" portalı, Misirin populyar "Əl-Vəsilə", "Nile Nyus", "Əl-Braq Nyus", "Dmc Nyus", İraqın "İraq Nyus" xəbər portalları Dövlət Tərcümə Mərkəzinin beynəlxalq virtual aləmdə yayılması məqsədilə müxtəlif dillərdə hazırladığı "Lev Tolstoyun qızı erməni vəhşilikləri haqqında" sənədli materialın yayımına başlayıb.

Material 1915-ci ildə ermənilər tərəfindən Van şəhərinin dinc əhalisinə – türklərə qarşı törədilən soyqırımın canlı şahidi olmuş Aleksandra Tolstoyun xatirələrini əks etdirir.

# Fransız deputat hədələnir

**Fransanın "Charente Libre" qəzetində erməni lobbisinin fransız deputat Jerom Lamberi hədələməsi ilə bağlı məqalə dərc edilib.**

Bildirilib ki, deputat Jerom Lamber Azərbaycan Prezidentinin "Le Figaro" qəzetində dərc olunmuş müsahibəni paylaşıb. Onun sonda yazdığı "Ermənistan bu münaqişəni alovlandırmaqda davam edir" şərhini ermənilər neytral hesab etməyib. Bundan sonra J.Lamber ermənilər tərəfindən yüzlərlə təhqir və hədə dolu mesaj alıb.

"Bir də ermənilər haqqında belə danışsanız, hərəkətlərinizə görə məsuliyyəti özünüz daşıyacaqsınız... başınıza bəla axtarmayın, çünki Ermənistanın Azadlığı uğrunda Gizli Erməni Ordusu və mafiya Fransadadır. Ona görə də ... (təhqir) cəhənnəmdə yanmağınızı arzulayıram", kimi yüzlərlə təhqir və hədə dolu mesajlar məqalədə dərc edilib.

Buna cavab olaraq J.Lamber bildirib ki, Azərbaycan haqqında xoş sözlər dediyi üçün ona qarşı aqressivlik göstərilib, təhqir və hədələr yazılıb. O, qeyd edib ki, Azərbaycan regionun problemlərinin mərkəzində olduğu, beynəlxalq siyasətdə vacib rol oynadığı üçün bu ölkə ilə dostluq qrupuna qoşulub.

***"Bunları mənə yazanlar ekstremistlərdir", - deyə J.Lamber vurğulayıb və söz azadlığı hüququ olduğunu diqqətə çatdırıb. Fransız deputat təhlükəsizlik xidməti onun vəziyyətinə diqqət yetirdiyi üçün şikayət etmədiyini deyib. "Qorxmuram, bu, məni qorxutmaq üçündür. Bununla mənə fikrimi söyləməyə mane ola bilməzlər", -*** deyə o bildirib.

## Oktyabr ayının 21-dən 27-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən, ötən həftə ərzində törədilmiş 165 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 32 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 152, o cümlədən borclu şəxs qismində axtarışda olan 61 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 9 ağır yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 9 nəfər ölmüş, 1 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 92 fakt müəyyən edilmişdir.

# MARAQ DÜNYASI



### MİNİ HOTEL

Böyük britaniyalı Emma Xammond fəaliyyətdə olmayan dəmir yolunun bir hissəsində təkrar emaldan vaqon düzəldərək, onu hotelə çevirib.

Qadın cəmi 3 aya çox böyük əmək sərf edərək retro vaqonun surətini yarada bilib. Retro vaqonun ərsəyə gəlməsinə təqribən 9 min dollar xərclənib. Burada bir gecə qalmaq isə 110 dollara başa gəlir.

Qeyri-adi mini hoteldə istirahət etmək arzusunda olanların sayı günbəgün artmaqdadır.

### QEYRİ-ADİ EV

Amerika Birləşmiş Ştatının Buffalo şəhərində bütünlüklə yerin altında yerləşən evin dizaynı öz orijinallığı ilə memarlıq sahəsində nou-xau hesab olunur.

Qeyri-adi evin sahəsi 280 kvadratmetr təşkil edir. Təbii işıq olmasa da, ev çox işıqlı və rahatdır.

Evin qiyməti 2,2 milyon dollar olduğundan bir çox amerikalının cibinə uyğun deyil.

### YERALTI BUNKER

Yeraltı bunker – "Plan B" varlı müştərilər üçün həm sığınacaq, həm də rahat istirahət yerinə çevriləcək.

"Sergey Makhno Architects" dizayner bürosunun mütəxəssislərinin qənaətinə görə, dəmir-betondan düzəldilən və 2280 kvadratmetr olan bunker əsasən yaşayış yerlərindən kənarda yerləşə bilər. Bunkerin yuxarısında isə helikopter meydançası quraşdırılıb.

Layihəyə əsasən, yeraltı bunkerdə bir neçə ailə komfort şəraitdə "dünyanın axırı"nı gözləyə bilər. Belə ki, burada yataq və mətbəx otaqları, kitabxana, kinoteatr, məşq zalları, hovuz, generator, suyun təmizlənməsi və kanalizasiya sistemləri, içməli su təchizatı nəzərdə tutulub. Ərzaq isə üstüörtülü istixanalarda yetişdiriləcək.

### "OYUN ŞƏFADIR" KLİNİKASI

Tailandın "Integrated Field" dizayn studiyasının "oyun şəfadır" devizi ilə layihə etdiyi uşaq klinikası böyük ictimai maraq doğurub.

Layihədə uşaqların klinikada müalicəsi, eyni zamanda asudə vaxtlarını şən keçirmələri üçün bütün imkanlar yaradılıb.



Nəhəng oyun meydançasına bənzəyən klinikada uşaqların zövqünə uyğun bir neçə növ - standart, xüsusi və lüks palatalar mövcuddur. Pasiyentlərin çarpayılarının üzərində müxtəlif heyvanların - qurbağa, şir və dovşan formasında gecə lampaları asılıb.

Klinikada, həmçinin süni buludlar gəzişən hovuz da fəaliyyət göstərir.

*Ruhiyyə Əliyeva*

MÜBARİZ KEŞİKDƏ
qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 10436
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 16:30
Qiyməti 40 qəpik